# “AĞ QIZIL”ın ŞÖHRƏTİ ÖZÜNƏ QAYTARILIR

**İndi dövlət xətti ilə yeni texnikanın da alınması təmin edilir. Biz bu məqsədlər üçün yüz milyonlarla dollar vəsait xərcləyirik ki, bu iş daha geniş vüsət alsın, ölkəmizin inkişafı təmin edilsin və yeni iş yerləri yaradılsın. Çünki pambıq tarlalarında çoxsaylı iş yerləri yaradılır. Hər hektarda orta hesabla iki nəfər işləyir. Gələn il 7 min hektarda ən azı 14 min insan işləyəcək, pul qazanacaq və öz maddi vəziyyətini yaxşılaşdıracaq, dövlətimizə də, ümumi işimizə də töhfə verəcək.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Hazırda ölkəmizdə qeyri-ərzaq təyinatlı bitkilərin əkin sahələrinin genişləndirilməsinə və istehsalının artırılmasına önəm və diqqət artıb. Bu, ilk növbədə dövlət başçısı cənab İlham Əliyevin sahənin inkişafına yönələn qətiyyətli mövqeyi ilə hiss olunur. Cənab Prezidentin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin bu ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilən iclasında dövlət başçısı demişdir:

**“Pambıqçılıqla bağlı bir çox ciddi addımlar atılıb. Biz pambıqçılığı bərpa edirik, dirildirik və pambıqçılığın şöhrətini özünə qaytarırıq. Əfsuslar olsun ki, son illər ərzində bu sahə də tənəzzülə uğrayıb. Keçən il 18 min hektardan cəmi 30 min ton pambıq yığılıb. Cəmi bir neçə ay ərzində görülmüş tədbirlər nəticəsində biz 52 min hektarda pambıq əkinini təmin etmişik və bu il 100 min ton məhsul gözlənilir. Gələn il 120 min hektar əkilməlidir. Yeni texnologiyalar, yeni suvarma sistemləri tətbiq olunacaq. Ona görə, hektardan məhsuldarlıq indiki 20 sentnerdən minimum 30 sentnerə qalxmalıdır. Belə olan halda, gələn il minimum 300 min ton pambıq yığılmalıdır. Bu, ölkəmizə həm valyuta gətirəcək, həm məşğulluğu təmin edəcək”.**

Dövlət başçısının pambıqçılığın inkişafına yönələn diqqət və qayğısı onun bu günlərdə ölkənin cənub bölgəsinə səfəri zamanı da bir daha öz təsdiqini tapmışdır. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyev bu səfəri çərçivəsində Salyan rayonunun Kürsəngi kəndinin pambıq tarlalarına baş çəkmiş, pambıqçılarla görüşərək onların qayğı və problemləri ilə şəxsən maraqlanmış, diqqət və qayğısını onlardan əsirgəməmişdir.

Burada Prezident İlham Əliyevə məlumat verildi ki, 2016-cı ildə rayonun 16 kəndində 2168 hektar sahədə pambıq əkini aparılıb. Gələn il Salyanda 7 min hektarda pambıq əkilməsi planlaşdırılır.

Pambıqçılarla söhbət edən Prezident İlham Əliyev deyib:

- 1970-ci illərdə Azərbaycanda ildə bir milyon ton pambıq yığılırdı və işçilər də razı idi, iş də gedirdi. Pambıqçılar yaxşı pul da qazanırdılar. Ondan sonra yavaş-yavaş azalma başladı. Keçən il cəmi 30 min ton pambıq yığılmışdır. İndi 24 rayonda yeni proqram icra edilir, o cümlədən Salyan rayonunda pambıq sahələri genişləndirilib. 2015-ci ildə Salyanda 400 hektar pambıq sahəsi var idisə, bu gün artıq 2200 hektarda pambıq əkilib. Gələn il, bu, 7 min hektara qalxacaq. Bütün bu sahələr yeni sahələrdir. Şoranlaşmış torpaq idi. **Görülən operativ tədbirlər nəticəsində indi bu 120 hektarda pambıq əkilib.** Yaxın günlərdə yığım başlanacaq.



Bu tarlalarda işləyənlərin şəraiti də yaxşı olmalıdır. Burada tarla düşərgəsi də var. Təbii ki, pambıqçılar üçün hər cür şərait yaradılmalıdır, su, yemək təşkil olunmalıdır. 1970-ci illərdə ulu öndərin rayonlara səfərlərində mən də onun yanında idim. Tarla düşərgələrində keçirdiyi çoxsaylı görüşlərini xatırlayıram.

Dövlətin diqqət və qayğısı sayəsində fəaliyyətini inkişaf etdirməyə və genişləndirməyə başlayan pambıqçılıq şirkətlərindən biri də **“CTS AGRO” MMC**-dir.

- “CTS-AGRO” Məhdud Məsuliyyətli Cəmiyyəti 2004-cü ildən fəaliyyət göstərir. Cəmiyyətin əsas fəaliyyət sahəsi pambıq istehsalı, onun tədarükü və emalının yerinə yetirilməsidir, - deyə MMC-nin baş direktoru **Arif İbrahimov** bizimlə söhbətə başlayır.

Cəmiyyətin tabeliyində 6 pambıq emalı zavodu, 6 pambıq tədarükü məntəqəsi, Biləsuvar rayonunda yerləşən təcrübə-sınaq təsərrüfatı və Şirvan pambıq emalı zavodunda yerləşən yağ emalı sexi fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, Cəmiyyətin Biləsuvar rayonundakı təcrübə-sınaq təsərrüfatı müasir tələblərə cavab verən “Pivod” qurğularından ibarət suvarma sistemi ilə təmin edilib.

“Aqrarkredit” QSC-nin və “CTS AGRO” MMC-nin rəhbərliyi mütəmadi olaraq yerlərdə pambıq əkən fermerlərin, rayon icra hakimiyyəti başçılarının, Cəmiyyətin işçilərinin və yerlərdəki zavod və məntəqə direktorlarının iştirakı ilə əməli yığıncaqlar keçirərək ölkə başçısının tapşırığına əsasən pambıqçılığın inkişafı ilə əlaqədar öz tövsiyələrini veriblər.

Məhz bu tövsiyələr əsasında pambıqçılıq üzrə inkişaf etmiş ölkələrin iş təcrübəsinə istinad edilərək, vəsaitin təyinatı üzrə istifadə edilməsi və şəffaflığın təmin edilməsi üçün hər hektara orta hesabla tələb olunan vəsaitə uyğun olaraq, orta respublika göstəricisindən xeyli aşağı olmaqla, yəni illik 6 %-lə “Aqrarkredit” QSC-nin yerlərdəki 5 filialı tərəfindən pambıq əkən fermerlərə bağlanmış 4 tərəfli müqavilələr əsasında kredit vəsaiti verilib.

Baş direktor deyir ki, cənab Prezidentin tapşırığına əsasən xam pambığın növlər üzrə alış qiymətlərinə “İqtisadiyyat” və “Kənd Təsərrüfatı” Nazirliklərinin iştirakı ilə yenidən baxılmış, əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə artırılaraq növlər üzrə qiymətlər aşağıdakı kimi müəyyən edilib:

**1-ci növ - tonu 500 manat (2015-ci ildə olub 410 Azn/ton)**
**2-ci növ - tonu 470 manat (2015-ci ildə olub 390 Azn/ton)**
**3-cü növ - tonu 440 manat (2015-ci ildə olub 370 Azn/ton)**
**4-cü növ - tonu 400 manat (2015-ci ildə olub 350 Azn/ton)**

Bundan əlavə, yüksək keyfiyyətli pambıq təhvil verən və məhsuldarlıq göstəricisi hər hektar üçün 20-40 sentnerdən yüksək olan fermerlər təhvil verəcəkləri hər ton xam pambığa görə 15-50 manat məbləğində mükafat nəzərdə tutulub.

Pambıq əkən çoxsaylı fermerlərin və pambıqçılıqla məşğul olan cəmiyyətlərin müraciətlərini nəzərə alaraq, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müvafiq Fərmanına əsasən toxum, mineral gübrələr və pestisidlərin idxalından ƏDV tutulmur.

Cənab Prezidentin 01 mart 2016-cı il tarixli “Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanına əsasən qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac-gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3%-i məbləğində ixrac təşviqi ödənilməsi nəzərdə tutulub.

Bundan başqa, əvvəllər buğda və çəltik kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına tətbiq edilən subsidiyalar hazırda pambığa da şamil edilib.

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına satılan mineral gübrələrin, pestisidlərin və ölkədə sənaye üsulu ilə istehsal edilmiş biohumusun qiymətinə 70 faiz güzəşt tədbiq edilməklə, hər hektar genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsinə və çoxillik əkmələrə görə mineral gübrələrin və biohumusun satış qiymətinə tətbiq edilən güzəştin ümumi məbləğinin yuxarı həddi 100 manat, pestisidlərin satış qiymətinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddi 10 manat məbləğində müəyyən edilib.

Görülmüş bu tədbirlər pambıq əkən fermerlərin bu sahəyə olan maraqlarını artırmış, onların maddi rifah halının yüksəlməsinə zəmin yaradan mühüm dövlət dəstəyidir.

2016-cı il mövsümündə Cəmiyyət tərəfindən fermerlərə pambığın əkilib becərməsində lazım olan texniki xidmət işləri, toxumla, gübrələrlə, kimyəvi preparatlarla və s. təminat işləri yerinə yetirilib. Hazırda becərmə işləri yekunlaşıb, pambıq yığımına başlanıb.

Bu il “CTS AGRO” MMC-nin zavod və məntəqələrində təxminən 35 min ton xam-pambıq tədarük edilməsi gözlənilir.

11 inzibati rayonda fəaliyyət göstərən “CTS AGRO” MMC həmin sahələrdə 17 min hektardan artıq sahədə məhsul yetişdirib. Məsələn, mühüm pambıqçılıq rayonu olan Sabirabadda 3 500 hektardan artıq, ənənəvi pambıqçılıq rayonu olan Saatlıda isə əkin sahəsi 2500 hektar, Ağcabədi və Bilasuvar kimi iri pambıqçılıq rayonlarının hər birində Cəmiyyətin xətti ilə 1900 hektardan artıq sahədə pambıq əkilibdir.

A.İbrahimov müsahibəsinə davam edərək bildirdi ki, 35 min ton xam-pambığın emalından təxminən 13 300 ton pambıq mahlıcı, 17 150 ton çiyid məhsulu və 600 ton digər tiftikli məhsullar alınacağı gözlənilir.

Emaldan alınan pambıq mahlıcı və müxtəlif növ iplik məhsulu əsasən Rusiyaya, Türkiyəyə, rafinasiya edilmiş pambıq yağı daxili bazara və Orta Asiya ölkələrinə, texniki çiyid və çiyid cecəsi (jmıx) daxili bazara və İran İslam Respublikasına ixrac edilməsi nəzərdə tutulur. Soapstok isə sabun istehsalı üçün daxili bazarda satılacaqdır.

Məlumat üçün bildiririk ki, Kənd Təsərrüfatı Nazirliyinin “Aqrolizinq” ASC-nin xətti ilə güzəştli qiymətlərlə 3 min ton “Amonium-nitrat” gübrəsi, 270 ton “Amofos” gübrəsi alınmışdır. Bundan başqa, Cəmiyyət tərəfindən ilkin ödəniş 20%, Dövlət tərəfindən ödəniş 40% və 40% isə Cəmiyyət tərəfindən 10 illik ödənişlə “Aqrolizinq” ASC-dən 10 ədəd dərman çiləyən aqreqat, 5 ədəd pnevmatik toxum səpən, 60 ədəd “MTZ-80X” markalı becərmə traktoru, 60 ədəd kultivator, 80 ədəd qoşqu lafetləri alınıb istifadəyə verilib.

Pambıq səpini ərəfəsində qonşu Türkiyədən 180 ton lifsizləşdirilmiş pambıq toxumu, “Aqrokimya” MMC-dən isə tələbata uyğun miqdarda alaq otlarına, xəstəliklərə və ziyanvericilərə qarşı mübarizədə istifadə edilən kimyəvi preparatlar alınaraq, fermerlərə verilməsi təmin olunmuşdur.

Xam pambığın sahələrdən vaxtında və itkisiz toplanmasını təmin etmək məqsədi ilə müasir tələblərə cavab verən 30 ədəd “John Deere” 9970 markalı Amerika istehsalı olan pambıqyığan kombaynın “Aqrolizinq” ASC xətti ilə alınması üçün maliyyə vəsaiti ödənilib və qısa vaxt ərzində Cəmiyyətə təhvil veriləcəyi gözlənilir. Hazırda Cəmiyyətin 28 ədəd “John Deere” markalı pambıqyığan kombaynı vardır.

Sahələrdə yetişdirilən pambığın tədarükü, saxlanması və emalı ilə əlaqədar pambıq meydançaları, talvarlar, yanğın təhlükəsinə qarşı su xətləri, elektrik xətləri, avadanlıq və mexanizmlər təmir edilib. Pambığın saxlanmasında istifadə edilən brezent örtüklər, qidalandırıcı və transportyorlarda istifadə edilən ötürücü lentalar və digər zəruri ehtiyat hissələri alınaraq zavod və məntəqələrə verilib.

Xam pambığın qəbulunda istifadə edilən elektron tipli avtomobil tərəziləri kalibrləşdirilərək, müvafiq dövlət qurumları tərəfindən yoxlanılaraq sertifikat verilib. Zavod və məntəqələr xam pambıq və mahlıc etalonları ilə təmin ediliblər. Hazırda bəzi sahələrdə əl yığımına başlanmışdır. Maşın yığımına isə hazırlıq işləri aparılır.

2016-cı ildə pambıq yığımı zamanı pambıq istehsalçılarına operativ kassa xidməti göstərilməsi üçün bütün pambıq qəbulu məntəqələrində səyyar xəzinə təşkil olunmuş, pambıqı təhvil verən istehsalçı heç bir yerə getmədən təhvil verdiyi xam pambığın dəyərini həmin gün ala biləcək.

— Hesab edirəm ki, 2016-cı il mövsümünü uğurla başa vuracaq, ölkəyə valyuta gətirən pambıqçılığın daha da inkişaf etdirilməsi üçün əlimizdən gələni edəcəyik, - deyə baş direktor bizimlə söhbəti yekunlaşdırır.

**Söhbəti qələmə aldı:**
**Nəriman CAVADOV,**
**“Respublika”.**